# Seçici mədəniyyəti də yüksəlib

7 saylı Səbail Seçki Dairəsinin 10 saylı məntəqəsində seçkilərin gedişini çoxsaylı müşahidəçilər izləyirdi. Xüsusilə öz təşəbbüsü ilə müstəqil müşahidəçilərin çox olması diqqəti cəlb edirdi. Tərəfsiz olan bu müşahidəçilərin rəyi seçkilərin şəffaf keçirilməsində önəmli rol oynayırdı.







Məntəqənin sədri Lalə Əliyeva dedi ki, bu seçkilərdə 8 namizəd yarışa qoşulub: "İlk dəfədir ki, namizədlərin sayı belə çoxdur. O üzdən məsuliyyətimiz daha böyükdür. Həm seçicinin, həm də seçilmək istəyən namizədin hüquqlarını qorumaq bizim borcumuzdur".

Məntəqədə səsvermə prosesini Müstəqil Dövlətlər Birliyindən, Türkiyədən, İrandan gələn müşahidəçilər izləyiblər. Bununla yanaşı, səsvermə prosesini bir çox yerli və xarici qeyri-hökumət təşkilatlarının nümayəndələri müşahidə ediblər. Məntəqənin şikayət və müraciətlər kitabına seçkidə nöqsanların baş verməsi barədə istər müşahidəçilər, istərsə də namizədlərin nümayəndələri tərəfindən hər hansı bir qeyd aparılmayıb.

Müstəqil müşahidəçi Dövlət Abdullayeva bildirdi ki, səsvermədə seçici fəallığı ilə yanaşı, seçici mədəniyyətinin də yüksəlməsini görürük: "Məntəqə nümayəndələri öz vəzifələrini qanun çərçivəsində yerinə yetirirlər. İndiyədək istər namizədlərin nümayəndələri və ya seçicilər tərəfindən qanun pozuntusu ilə bağlı heç bir müraciət olunmayıb".

Seçici Nərmin Əhmədova dedi ki, səsvermə zamanı heç bir problemlə qarşılaşmayıb. Ona istədiyi namizədə səs vermək imkanı yaradılıb və istədiyi namizədə də səs verib. Seçkidə iştirakını isə özünün vətəndaşlıq borcu hesab edir.

Nigar İlyaslı səsverməyə qızı ilə birlikdə gəlmişdi. Bülleteni atmağı qızına həvalə etdi, uşağın sevincinin həddi-hüdudu yox idi. Bizimlə söhbət zamanı bildirdi ki, bütün seçkilərdə iştirak edir. Bu dəfə də inanıb etibar etdiyi namizədə səs verib. Dedi ki, seçkidə layiqli, savadlı və vətənpərvər namizədlərə səs verməliyik ki, onlar bizi parlamentdə layiqli təmsil etsinlər.

Müşahidəçi Leyla Ağakişiyeva Yeni Azərbaycan Partiyasını təmsil edirdi. Qeyd etdi ki, iqtidar partiyasının nümayəndəsi kimi məsuliyyəti böyükdür: "Ona görə də səsvermənin gedişini diqqətlə izləyirik. Hələlik heç bir qanun pozuntusunu qeydə almamışıq. Bu məntəqədə seçicilər 8 namizədə səs verirlər. Biz onların hansı partiyaya mənsub olmasına və müstəqil şəkildə qatılmasına baxmayaraq, hamısının hüquqlarının qorunmasına məsuliyyət daşıyırıq. İstəyimiz odur ki, seçicilərin layiq gördüyü namizəd qalib gəlsin".

Sosioloji Tədqiqatlar Mərkəzinin nümayəndəsi Aytən Məmmədova da seçki prosesini izləyirdi. Dedi ki, onlar anonim şəkildə seçicilərin rəyini öyrənirlər: "Bizim tərəfimizdən hələlik heç bir qanun pozuntusu barədə şikayət və ya narazılıq qeydə alınmayıb". Aytən xanım həmçinin seçici mədəniyyətinin də yüksək olduğunu vurğuladı. Müraciətlərinə seçicilərin anlayışla yanaşdığını, sorğularına məsuliyyətlə cavab verdiklərini bildirdi.

***Rüstəm KAMAL,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 2 sentyabr (№ 189).- S.9.